**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

**“MAMALIQ VƏ GİNEKOLOGİYA ”**

fənni üzrə fəlsəfə doktoru imtahanının

# PROQRAMI

hazırlıq istiqaməti: **“Tibb elmləri”**

proqramın istiqaməti: **3215.01 “Mamalıq və Ginekologiya”**

**B A K I - 2022**

**Mamalıq və ginekologiya fənni üzrə fəlsəfə doktoru imtahanının proqramı tibb elmləri doktoru, professor H.F.Bağırovanın ümumi elmi rəhbərliyi ilə aşağıdakı müəlliflər tərəfindən hazırlanmışdır**


Azərbaycan Tibb Universitetinin
"Mamalıq və ginekologiya" kafedrasının müdiri,
ə.e.x., tibb elmləri doktoru, professor **Bağırova Hicran Firudin qızı**

Azərbaycan Tibb Universitetinin
"Mamalıq və ginekologiya" kafedrasının
dosenti, tibb üzrə fəlsəfə doktoru **Əliyeva Sevinc Arif qızı**

Azərbaycan Tibb Universitetinin
"Mamalıq və ginekologiya" kafedrasının
dosenti, tibb üzrə fəlsəfə doktoru **Tağıyeva İradə Əhməd qızı**

Azərbaycan Tibb Universitetinin
"Mamalıq və ginekologiya" kafedrasının
dosenti, tibb üzrə fəlsəfə doktoru **Sarıyeva Ellada Qoşqar qızı**

**MƏZMUNU**

Ümumi qaydalar:

**Bölmə I.** Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri

**Bölmə II.** Fəlsəfə doktoru imtahanının verilməsi prosesində yoxlanan bacarıqlar

**Bölmə III.** Fəlsəfə doktoru imtahanı proqramının məzmunu

Fəsil 1. Fizioloji mamalıq

Fəsil 2. Patoloji mamalıq

Fəsil 3. Perinatologiya

Fəsil 4. Konservativ ginekologiya

Fəsil 5. Cərrahi ginekologiya

**Bölmə IV.** Tədris-metodik və informasiya təminatı

**Bölmə V.** Qiymətləndirmə meyarları

**Bölmə VI.** Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi sualların siyahısı

## ÜMUMİ QAYDALAR

Doktorantura ali təhsil bazasında elmi və elmi-pedaqoji kadr hazırlığını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir. Doktorantura təhsili ali təhsilin ən yüksək pilləsi olaraq ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalar vasitəsilə həyata keçirilir.

Mamalıq və ginekologiya fənni "Mamalıq və ginekologiya" ixtisası, 3215.01 – "Mamalıq və ginekologiya" istiqaməti proqramı üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlığının variativ hissəsinə aid fundamental fəndir.

"Mamalıq və ginekologiya" fənninin öyrənilməsi bakalavr və rezidentura hazırlığı üzrə əsas təhsil proqramının mənimsənilməsi prosesində doktorantların yiyələndiyi biliklərin məcmusuna əsaslanır. Proqramın əsasını aşağıdakı fəsillərin əsas müddəaları təşkil edir: "Fizioloji mamalıq", "Patoloji mamalıq", "Perinatologiya",
"Konservativ ginekologiya", "Cərrahi ginekologiya".

"Mamalıq və ginekologiya" fənni üzrə fəlsəfə doktoru imtahanına daxil edilmiş sualların mənimsənilməsinin nəticələri doktorantların elmi-tədqiqat və peşəkar fəaliyyətləri üçün həlledici əhəmiyyətə malikdir.

"Mamalıq və ginekologiya" fənni üzrə fəlsəfə doktoru imtahanı tədris planında və təqvim tədris qrafikində müəyyən edilmiş müddətlərdə keçirilir.

"Mamalıq və ginekologiya" fənni üzrə fəlsəfə doktoru imtahanı proqramında fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri, ona olan tələblər müəyyən edilmiş, fəlsəfə doktoru imtahanının məzmunu və qiymətləndirmə meyarları təsvir edilmişdir.

"Mamalıq və ginekologiya" fənni fundamental elmi bazaya malik olan, elmi yaradıcılığın metodologiyası və müasir informasiya texnologiyaları barədə məlumatlı, müstəqil elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyətlə məşğul olmağı bacaran və buna hazır olan şəxsiyyətin formalaşmasına imkan yaradır.

## I BÖLMƏ. ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

3215.01 - "Mamalıq və ginekologiya" ixtisası üzrə doktoranturada təhsil alanların hazırlığının hədəfi tibb sahəsində ali ixtisaslı kadrlar hazırlanmasından, bu sahənin elmi və elmi-pedaqoji kadrlarla, həmçinin mamalıq və ginekologiya üzrə aparılan tədqiqatın müasir elmi metodlarına yiyələnmiş, yüksək ixtisaslı mütəxəssislərlə təmin etməkdən, doktorantın elmi ixtisas fənlərinin öyrənilməsinin yekunlarına əsasən onun bacarıqlarının səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın məzmunu** – qadın cinsiyyət orqanlarının anatomiyası, fiziologiyası,

mayalanma, embriogenez, fetal inkişaf. Hamiləlik dövründə baş verən dəyişikliklər və hamiləlik ağırlaşmaları. Fizioloji və patoloji doğuş. Fizioloji və patoloji zahılıq dövrü. Perinatologiyanın əsasları. Ekstragenital patologiya fonunda hamiləliyin və doğuşun xüsusiyyətləri. Ginekoloji pasientlərin müasir müayinə və müalicə üsulları.

**Tədqiqatın obyekti** – ginekoloji pasientlər, hamilə, doğan və zahı qadınlar. Ginekoloji xəstəliklərin, hamiləlik, doğuş və zahılıq dövrünün ağırlaşmalarının qarşısının alınmasına yönəldilmiş tədqiqatlar klinik tibbin inkişafına, yeni müalicə və profilaktika metodlarının işlənib hazırlanmasına zəmin yaradır.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** təhsil alanlar tərəfindən əsas ali təhsil proqramının – 3215.01 - "Mamalıq və ginekologiya" istiqaməti üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlanması proqramının mənimsənilməsinin nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədləri:**

− elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanına hazırlıq və fəlsəfə doktoru imtahanının verilməsi prosesində 3215.01 - "Mamalıq və ginekologiya" hazırlıq istiqaməti üzrə Dövlət Ali Təhsıl Standartlarının tələbləri (ali ixtisaslı kadrların hazırlıq səviyyəsi) və təhsil alanların ali təhsil proqramının - doktoranturada elmi-pedaqoji kadrların hazırlanması proqramının mənimsənilməsi prosesində əldə etdikləri faktiki bilik, bacarıq və vərdişlər arasında uyğunluğu təyin etmək;

− doktorantın mamalıq və ginekologiyada fizioloji və patoloji proseslərin xüsusiyyətləri, klinik gedişi və ağırlaşmaları, perinatal nəticələr, müalicə və profilaktik tədbirlər haqqında biliklərin olmasını qiymətləndirmək;

− doktorantın fizioloji hamiləlik, doğuş və zahılıq dövrü, yenidoğulmuş dövrünün qiymətləndirilməsinə aid bilik və bacarıqlarını aşkar etmək. Patoloji hamiləlik (həmçinin ekstragenital patologiya fonunda) və doğuş, zahılıq dövrünə aid olan məsələləri, patoloji proseslərin etiologiyasını, patogenezini, klinik gedişini, müalicə-profilaktika tədbirlərinin əsaslandırılması bacarığını qiymətləndirmək;

− doktorantın tədqiqat metodlarını müstəqil öyrənmək, xəstəliklərin modelinin yaradılması və eksperimental terapiyası məsələlərini, o cümlədən müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, əldə olunan bilikləri klinikada tətbiq etməyi bacarmaq; klinik təfəkkürün metodik və metodoloji əsaslarını hazırlamaq qabiliyyətini qiymətləndirmək.

## II BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı aşağıda sadalanan **bacarıqların** üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

– müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti;

**Ümumi peşəkar bacarıqlar**:

– mamalıq və ginekologiya sahəsində müasir tədqiqat, müayinə və müalicə metodlarından və informasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata keçirmək qabiliyyəti.

**Peşəkar bacarıqlar:**

– mamalıq və ginekologiya sahəsində nəzəri və təcrübi bacarıqların metodologiyasının mənimsənilməsi;

– elmi tədqiqatlarda mamalıq və ginekologiya elminin nəzəri əsaslarından istifadə etmək qabiliyyəti.

**Fəlsəfə doktoru imtahanında doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:**

**biliklər:**

- fizioloji və patoloji hamiləlik zamanı baş verən dəyişikliklər haqqında məlumat: mayalanma, implantasiya, embriogenez, fetal inkişaf, perinatal dövrün xüsusiyyətləri;
- fizioloji və patoloji doğuş; cərrahi doğuşa göstərişlər, şərtlər, avadanlıq, anestezioloji yardım, əks-göstərişlər və ağırlaşmalar;
- ginekoloji xəstəliklərin etiologiyası, patofiziologiyası, klinikası, ağırlaşmaları, proqnozlaşdırılması, müalicə və profilaktik tədbirlərin aparılması;
- sonsuzluq və müasir reproduktiv texnologiyalar;
- ailə planlaşdırılması və müasir kontrasepsiya üsulları;
- ginekologiyada endoskopik müayinə və müalicə üsullarının əhəmiyyəti, onların tətbiqi.

**bacarıqlar:**

- klinik-laborator, instrumental, histoloji və sitoloji müayinələrin təhlilini aparmaq;
-mamalıqda ümumi müayinə üsulları (xarici mamalıq müayinəsi, güzgülərlə müayinə, bimanual müayinə, auskultasiya) ;

- ginekologiyada ümumi müayinə üsulları (güzgülərlə müayinə, bimanual müayinə, genital yaxmanın götürülməsi, PAP-test);

- ginekologiyada xüsusi müayinə üsulları (uşaqlıq boşluğunun zondlanması, uşaqlıq boşluğunun qaşınması, biopsiya, histerosalpinqoqrafiya, endoskopik müayinə üsulları)

- mamalıqda və ginekologiyada xüsusi qeyri-invaziv və invaziv üsullar (USM, doppleroqrafiya, MRT, KT, KTQ, xorionun biopsiyası, amniosentez, kordosentez və s.);

-mamalıqda xromosom anomaliyaların skrininqi (ikili, dördlü test, NİPT, amniosentez və s.);

- endoskopik diaqnostik və müalicə üsulları (kolposkopiya, histeroskopiya, laparoskopiya)

- əldə olunan bilikləri elmi-tədqiqat fəaliyyətində tətbiq etmək;

**vərdişlər:**

- müxtəlif ədəbiyyat mənbələri ilə işləmək, müvafiq problemlər üzrə informasiya axatarışı aparmaq;

- tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək;

- müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək;

- müstəqil mamalıq və ginekoloji tədqiqat aparmaq qabiliyyəti;

- şifahi və yazılı nitqini məntiqi cəhətdən düzgün, əsaslandırılmış və aydın şəkildə qurmaq; fənlərarası qarşılıqlı təsiri həyata keçirmək, tədqiqat məsələlərinin həlli üçün perspektivli nəzəri-metodoloji və elmi-praktik yanaşmaları inkişaf etdirmək qabiliyyəti;

-tədqiqat işinin müxtəlif metodları;

-statistik göstəricilərin qiymətləndirilməsi metodikası, xronoloji təhlili metodları.

## III BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANI PROQRAMININ MƏZMUNU

## FƏSİL 1. FİZİOLOJİ MAMALIQ

Mamalıq fundamental elm və tədris fənni kimi. Mamalığın müasir tibb elmində yeri. Mamalıq fənni, vəzifələri və metodları. Mamalığın klinik təbabətin inkişafında əhəmiyyəti. Mamalıq üzrə aparılan tədqiqatların ümumi prinsipləri və onların nəticələrinin təhlili. Hamilə qadınlarda tədqiqatın aparılmasının mənəvi-etik aspektləri. Mamalıqda istifadə olunan müasir üsullar. Tədqiqata cəlb olunan pasientlərin seçilməsi və qruplaşdırılması. Hamiləliyin gedişinin monitorinqi, yaş, demoqrafik bölgü, peşə, paritet və s. amillərdən asılılığı. Hamiləlik dövründə orqanizmdə baş verən fizioloji proseslərin mühafizə-uyğunlaşma reaksiyalarının mexanizminin

araşdırılması; qruplar arasında müqayisəli təhlil metodunun əhəmiyyəti. Mamalıq elmində müasir diaqnostik üsulların tətbiqi və əhəmiyyətinin qiymətləndirilməsi.

Hamiləlik dövründə antenatal qulluq, doğuş prosesinin klinikası və idarə olunması, fizioloji zahılıq dövrünün idarə edilməsi, son və erkən zahılıq dövrünün qanaxmalarının profilaktikası. Mamalıqda deontoloji aspektlər.

## FƏSİL 2. PATOLOJİ MAMALIQ

**2.1. Hamiləliyin birinci yarısının patoloji vəziyyətləri** (ürəkbulanma, qusma, hipersalivasiya, dermatoz, osteomalyasiya, tetaniya, bronxial astma). Korreksiya üsulları.

**2.2. Hamiləliyin ikinci yarısının patoloji vəziyyətləri.**

- *Hipertenziv vəziyyətlər* (gestasion hipertenziya, xronik hipertenziya fonun inkişaf edən preeklampsiya, preeklampsiya, eklampsiya, HELLP-sindrom). Etiologiya, patogenez, təsnifat, klinik gedişatı, diaqnostik meyarları, müalicə və profilaktika.
- *Ciftin və döl qişalarının patologiyaları* (azsululuq, çoxsululuq). Etiologiya, patogenez, təsnifat, klinik gedişatı, diaqnostik meyarları, müalicə və profilaktika.
- *Bətndaxili inkişaf ləngiməsi*. Fetoplasentar çatışmazlıq. Etiologiya, patogenez, təsnifat, klinik gedişatı, diaqnostik meyarları, müalicə və profilaktika.
- *Döl qişalarının vaxtından əvvəl cırılması*. Etiologiya, patogenez, təsnifat, klinik gedişatı, diaqnostik meyarları, müalicə və profilaktika.

**2.3. Dölün qeyri-düzgün vəziyyətləri və gəlişləri.**

- Dölün köndələn və çəp vəziyyətləri. Etiologiya, diaqnostika, mamalıq taktikası, profilaktika.
- Çanaq gəlişi. Etiologiya, təsnifat, diaqnostika, hamiləliyin və doğuşun gedişi, doğuşun biomexanizmi, mamalıq taktikası, profilaktika.
- Döl başının açılış gəlişləri. Etiologiya, təsnifat, diaqnostika, doğuşun biomexanizmi, mamalıq taktikası. Asinklitizm.

**2.4. Mamalıq qanaxmaları**

**2.4.1. Hamiləliyin birinci yarısının qanaxmaları.**

- *Spontan abort*. Etiologiya, diaqnostika, təsnifat, müalicə üsulları və profilaktika.
- *İnkişafdan qalmış hamiləlik*. Etiologiya, diaqnostika, təsnifat, müalicə və profilaktika.
- *Ektopik hamiləlik*. Etiologiya, diaqnostika, təsnifat, müalicə və profilaktika.
- *Trofoblastik xəstəliklər*. Etiologiya, diaqnostik meyarlar, təsnifat, müalicə və

profilaktika.

**2.4.2. Hamiləliyin ikinci yarısının qanaxmaları.**

- *Ciftin yerləşmə anomaliyaları* (tam, natamam cift gəlişi). Etiologiya, patogenez, təsnifat, klinik gedişi, diaqnostika, mamalıq taktikası.
- *Ciftin bitişmə anomaliyaları*. Etiologiya, patogenez, təsnifat, klinik gedişi, diaqnostika, mamalıq taktikası.
- *Normal yerləşmiş ciftin vaxtından əvvəl ayrılması*. Etiologiya, patogenez, təsnifat, klinik gedişi, diaqnostika, mamalıq taktikası

**2.4.3. Doğuş vaxtı baş verən qanaxmalar.**

- *Mamalıq travmatizmi.* Etiologiya, patogenez, təsnifat, klinik gedişi, diaqnostika, mamalıq taktikası, profilaktikası.

**2.4.4. Zahılıq dövrünün qanaxmaları (erkən və gec).** Etiologiya, patogenez, təsnifat, klinik gedişi, diaqnostika, mamalıq taktikası, profilaktikası

2.5. **Çoxdöllü hamiləlik.** Etiologiya, təsnifat, hamiləliyin və doğuşun gedişinin xüsusiyyətləri, diaqnostika, mamalıq taktikası.

2.6. **Doğuş fəaliyyətinin anomaliyaları.** Etiologiya, təsnifat, diaqnostika, fəsadları, mamalıq taktikası, profilaktikası.

2.7. **Başa çatmamış hamiləlik.**

- *Spontan abort.* Etiologiya, diaqnostika, təsnifat, müalicə üsulları və profilaktika.
- *İstmiko-servikal çatışmazlıq*. Etiologiya, diaqnostika, müalicə üsulları (serklyaj, pessarinin yeridilməsi) və profilaktika.
- *İnkişafdan qalmış hamiləlik.* Etiologiya, diaqnostika, təsnifat, müalicə və profilaktika.
- *Vaxtından əvvəl doğuş.* Etiologiya, təsnifat, doğuşun gedişinin xüsusiyyətləri, diaqnostika, mamalıq taktikası, profilaktikası. Yarımçıq yenidoğulmuşun xüsusiyyətləri. Tənəffüs pozulmalarının qiymətləndirmə şkalaları, müalicə prinsipləri.

2.8. **Vaxtı ötmüş hamiləlik.** Etiologiya, patogenez, diaqnostika, gec doğuşun gediş xüsusiyyətləri, fəsadları, mamalıq taktikası, profilaktikası. Vaxtı ötmüş yenidoğulmuşun xüsusiyyətləri.

**2.9. Cərrahi mamalıq.**

2.9.1. *Kesar kəsiyi.* Növləri, göstərişlər, şərtlər, anesteziya üsulları, texnikası, əks-göstərişlər, ağırlaşmalar.

2.9.2. *Kiçik mamalıq əməliyyatları*. Növləri, göstərişlər, şərtlər, anesteziya üsulları,

texnikası, əks-göstərişlər, ağırlaşmalar.

- *Amniotomiya*
- *Epiziotomiya*
- *Mamalıq maşaları*
- *Dölün vakuum-ekstraksiyası*
- *Dölparçalayıcı əməliyyatlar*

**2.10. Zahılıq dövrünün irinli-septiki xəstəlikləri.** Etiologiya, patogenez, təsnifat, diaqnostika, klinik gedişi, fəsadları, müalicə və profilaktikası.

**2.11. Cinsiyyət üzvlərinin anomaliyalarında hamiləliyin və doğuşun gedişi**

2.12. **Ekstragenital patologiya fonunda hamiləliyin gedişi və baş verən mamalıq ağırlaşmaları.**

- Böyrək xəstəlikləri və hamiləlik
- Anemiya və hamiləlik
- Ürək – qan damar sisteminin xəstəlikləri
- Şəkərli diabet və hamiləlik
- Hipo- və hipertireoz və hamiləlik
- Anadangəlmə və qazanılmış trombofiliyalar və hamiləlik

## FƏSİL 3. PERİNATOLOGİYA

**3.1. Perinatologiya elminin əsasları.**

**3.2. Bətndaxili inkişaf mərhələləri.** Embrional və fetal dövrün kritik dövrləri. Zərərli amillərin hamiləliyin gedişinə təsiri.

**3.3. Perinatal dövr.** Perinatal xəstələnmə və ölüm göstəriciləri. Perinatal patologiya üzrə risk qrupları.

**3.4. Perinatologiyada istifadə edilən müayinə üsulları**. Dölün vəziyyətinin qiymətləndirmə üsulları (USM, KTQ, dopplerometriya, biofiziki profil və s.). Skrininq-testlər.

**3.5. Perinatologiyada istifadə edilən müalicə üsulları** (fetal cərrahiyyə).

**3.6. Bətndaxili infeksiyalaşma.** Toksoplazmoz, məxmərək, sitomeqalovirus, herpes, hepatitlər, sifilis, İİV və s.

**3.7. Feto-plasentar çatışmazlıq.** Dölün distress-sindromu. Dölün inkişaf ləngiməsi.

**3.8. Rezus-izoimmunizasiya.**

**3.9. Anadangəlmə inkişaf anomaliyaları.** Tibbi-genetik məsləhətləşmə.

## FƏSİL 4. KONSERVATİV GİNEKOLOGİYA

Ginekologiya bir fənn kimi. Ginekologiyada deontologiya. Reproduktiv sistemin ontogenezi, inkişaf mərhələləri, anatomiya və fiziologiyası. Menstrual dövrün neyro-humoral tənzimlənməsi. Ginekoloji pasiyentlərin müayinə üsulları (ümumi və xüsusi). Uşaqlarda ginekoloji müayinənin xüsusiyyətləri.

Menstrual funksiyanın pozulmaları. Neyroendokrin sindromlar. Vaxtından əvvəl cinsi inkişaf və cinsi inkişafın ləngiməsi. Pre- və postmenopauzal dövrün fiziologiya və patologiyası. Qadın cinsiyyət üzvlərinin iltihabi xəstəlikləri. Qadın cinsiyyət üzvlərinin xoşxassəli, şişönü və bədxassəli xəstəlikləri. Endometrioz. Süd vəzilərinin dishormonal xəstəlikləri. Trofoblastik neoplaziyalar.

Qadın cinsiyyət üzvlərinin qeyri-düzgün vəziyyətləri. Qadın cinsiyyət üzvlərinin inkişaf anomaliyaları. Sonsuz nikah. Ailə planlaşdırılması və kontrasepsiya. Qadın seksopatologiyası.

## FƏSİL 5. CƏRRAHİ GİNEKOLOGİYA

**5.1. Uşaqlığın mioması.** Etiologiya, patogenez, təsnifat (FİGO), klinik gedişatı, diaqnostika, differensial diaqnostika. Cərrahi müalicə üsulları (konservativ və radikal, endoskopik və laparotomik) – göstərişlər, əks-göstərişlər, anestezioloji yardım, ağırlaşmalar, profilaktika.

**5.2. Endometrioz.** Etiologiya, patogenez, təsnifat, klinik gedişatı, diaqnostika, differensial diaqnostika. Cərrahi müdaxilə - göstərişlər, əks-göstərişlər, anestezioloji yardım, ağırlaşmalar, profilaktika.

**5.3. Yumurtalıqların şişləri və şişəbənzər törəmələri.** Etiologiyası, patogenezi, təsnifatı, klinik gedişi, diaqnostika, differensial diaqnostika. Cərrahi müdaxilə - göstərişlər, əks-göstərişlər, anestezioloji yardım, ağırlaşmalar, profilaktika.

**5.4. Uşaqlıq artımlarının iltihab törəmələri.** Etiologiyası, patogenezi, təsnifatı, klinik gedişi, diaqnostika, differensial diaqnostika. Cərrahi müdaxiləyə göstərişlər, əks-göstərişlər, anestezioloji yardım, ağırlaşmalar, profilaktika.

**5.5. Qadın cinsi üzvlərinin inkişaf anomaliyaları.** Etiologiyası, patogenezi, təsnifatı, klinik gedişi, diaqnostika, differensial diaqnostika. Cərrahi rekonstruktiv plastik əməliyyatlar - göstərişlər, əks-göstərişlər, anestezioloji yardım, ağırlaşmalar, profilaktika.

**5.6. Qadın cinsiyyət üzvlərinin qeyri-düzgün vəziyyətləri.** Səbəbləri, təsnifatı, klinik gedişi, diaqnostika. Cərrahi əməliyyatların növləri - göstərişlər, əks-göstərişlər, anestezioloji yardım, ağırlaşmalar, profilaktika.

**5.7. Genital fistulalar və qadın cinsiyyət üzvlərinin posttravmatik dəyişiklikləri.** Ümumi müddəalar, təsnifat**,** klinik gedişatı, diaqnostika. Cərrahi müdaxilələr.

**5.8. Hamiləliklə bağlı cərrahi müdaxilələr.** Süni abort, uşaqlıq boşluğunun qaşınması. Ektopik hamiləlik - etiologiya, patogenez, təsnifatı, klinik gedişi, diaqnostika, differensial diaqnostika.

Cərrahi əməliyyatların növləri - göstərişlər, əks-göstərişlər, anestezioloji yardım, ağırlaşmalar, profilaktika.

**5.9. Ginekologiya təxirəsalınmaz yardım tələb edən vəziyyətlər.** Yumurtalığın apopleksiyası. Ektopik hamiləlik. Yumurtalıq sistinin ayaqcığın burulması. Tuboovarial abses. Miomatoz düyünün ayqcığın burulması. Differensial diaqnostika – kəskin appendisit, kəskin bağırsaq keçməməzliyi, mədə xorası, kəskin pankreatit, böyrək kolikası.

## IV BÖLMƏ. TƏDRİS-METODİK VƏ İNFORMASİYA TƏMİNATI

### Əsas ədəbiyyat


1. H. F. Bağırova Mamalıq. 2007. 368 səh.
2. "Ginekologiya". H.F.Bağırovanın redaktorluğu altında Dərslik. Bakı -2012. 600 səh
3. Qadın məsləhətxanalarında, ambulator-poliklinik tibb müəssələrində antenatal xidmətin təşkili haqqında təlimat, Bakı-2014
4. Doğum evlərində (şöbələrində) doğuşayardım işinin təşkili haqqında təlimat, Bakı-2013
5. В. И. Бодяжина, К.Н.Жмакин, А.П.Кирющенков, Акушерство. 2013. 490 səh.
6. Г. М. Савельева Акушерство. Учебник. 2000. 816
7. В. И. Дуда. Акушерство. 2013, 576 стр.
8. В.К. Лихачев Практическое акушерство с неотложными состояниями. 2010. 720 с.
9. Алан Черни Акушерство. 2009. 694 с.
10. Алан Черни Гинекология. 2009. 776 с.
11. Василевская Л.Н. Гинекология. Учебник. 2002, 576 с.
12. Кулаков В.И., Прилепская В.Н. Практическая гинекология. М., 2001,
13. Савельева Т.М., Бреусенко В.Т. Гинекология, М., 2012, 656 с.
14. Williams Obstetrics. 25 th. Edition 2010. 1344 p.
15. Williams Gynecology. Second Edition 2010. 1401 p.

**İnternet mənbələri**

1. https://www.kitabyurdu.org/kitab/derslik/1335-mamaliq-derslik.html
2. https://www.google.com/search?rlz=1C1SQJL_enAZ971AZ971&sxsrf=APq-WBsQXm544tpOAKQ8zx6RC02FnBIyXw:1650447204435&q=Ginekologiya.+H.F.Ba%C4%9F%C4%B1rovan%C4%B1n+redaktorlu%C4%9Fu+alt%C4%B1nda+D%C9%99rslik.+Bak%C4%B1+-2012.+600+s%C9%99h&sa=X&ved=2ahUKEwjU1Nz6qqL3AhU7QfEDHSF8DYAQgwN6BAgBEAE
3. https://www.isim.az/files/material/qadintelimat.pdf
4. https://www.isim.az/files/kitab/dogum%20evleri%20telimat.pdf
5. https://www.bookvoed.ru/files/3515/10/86/73.pdf
6. https://studfile.net/preview/6379770/
7. http://bmfk-birsk.ru/about/book/akusherstvo.pdf
8. https://www.livelib.ru/book/1000635892-prakticheskoe-akusherstvo-s-neotlozhnymi-sostoyaniyami-v-k-lihachev
9. https://mine-med.ru/biblioteka/katalog/knigi/alfavitnyiy-katalog-(medicina)/2007-2009-godyi.php
10. https://mybiblioteka.su/5-36681.html
11. https://vk.com/wall-66567433_3636
12. https://dep_aig.pnzgu.ru/sprav
13. https://accessmedicine.mhmedical.com/book.aspx?bookID=1918
14. https://www.amazon.com/Williams-Gynecology-Second-Schorge/dp/0071716726
15. https://www.amazon.com/Williams-Gynecology-Second-Schorge/dp/0071716726

## V BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ MEYARLARI

**Metodik göstərişlər**

**Doktorantların** 3215.01 “Mamalıq və ginekologiya” ixtisas fənni üzrə ali ixtisaslı kadrların hazırlanması üçün fəlsəfə doktoru imtahanı proqramı üzrə attestasiyası şifahi imtahan şəklində aparılır. Doktorantın fəlsəfə doktoru imtahanına hazırlığı “Mamalıq və ginekologiya” fənni üzrə mühazirələr və praktiki məşğələlər dövründə, həmçinin auditoriyadankənar saatlarda müstəqil iş çərçivəsində həyata keçirilir.

**Qiymətləndirmə meyarları.** İmtahan zamanı doktorant proqrama daxil edilmiş suallara ətraflı cavab verməlidir. İmtahan zamanı komissiya əlavə suallar da verə bilər. Cavab zamanı doktorant sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:

- Mayalanma prosesi, embrionegenez, fizioloji hamiləlik, patoloji hamiləlik zamanı orqanizmdə baş verən dəyişikliklər, həmçinin cərrahi mamalığın əsas bölmələri haqqında biliyin nümayiş etdirilməsi. Aybaşı prosesinin fiziologiya və patologiyası, ginekoloji xəstəliklərin etiopatogenezi, ağırlaşmaları, müalicə və profilaktikası haqqında elmi məlumatların nəzəri şəkildə çatdırılması ;

- Hamilə qadınların və ginekoloji xəstələrin ümumi və xüsusi müayinə üsulları haqqında nəzəri biliyə malik olmaq, mamalıq və ginekoloji vərdişlərin nümayiş etdirməyi bacarmaq;

- Klinik-laborator, mamalıq, ginekoloji, instrumental müayinələrin aparılması nın vacibliyini əsaslandırmaq; Hamilələr və ginekoloji xəstələr üzərində elmi-tədqiqat işinin aparılma qaydaları haqqında məlumatlı olmaq ; tədqiqatı planlaşdırmaq bacarığına malik olmaq ; Tədqiqat işində dientologiyaya riayət etməyi bacarmaq, etik-hüquqi məsələlərin həllini təşkil etmək ; Elmi-tədqiqat işinin metodlarının icrasını və tədqiqatın nəticələrini təhlil etməyi bacarmaq;

- Öyrənilən mövzu üzrə müxtəlif ədəbiyyat mənbələri ilə işləmək, müvafiq problemlər üzrə informasiya axatarışı aparmaq; tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək; müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini təhlil etmək və qiymətləndirmək.

Cavabın tamlığı təhsilin planlaşdırılan nəticələrinin qiymətləndirilməsi göstəricilərinə əsasən təyin edilir.

Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanını qəbul edən imtahan komissiyasının üzvləri (qapalı iclasda açıq səsvermə yolu ilə) **aşağıdakı meyarları rəhbər tutaraq** imtahan verən şəxsin hər bir suala cavabını biliklərin qiymətləndirilməsi üçün beş ballıq sistem əsasında **5 (“əla”), 4 (“yaxşı”), 3 (“kafi”) və ya 2 (“qeyri-kafi”)** kimi qiymətləndirirlər. Mübahisəli vəziyyət yaranan halda imtahan komissiyasının Sədri həlledici səsə malikdir.

| **Ballar** | **Qiymətləndirmənin meyarları** |
|---|---|
| **1** | **2** |
| **5 (əla)** | Doktorant mamalıq və ginekologiya fənnini dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu tam açıqlayır. Doktorant mamalıq və ginekologiya ixtisası üzrə yerli və xarici tədqiqatçıların fizioloji və patoloji mamalıq, perinatologiya, konservativ və cərrahi ginekologiya aid olan məlumatları haqqında dərin biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla hərtərəfli tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirə bilir. |
| **4 (yaxşı)** | Doktorant mamalıq və ginekologiya fənnini dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu açıqlayır. Doktorant mamalıq və ginekologiya ixtisası üzrə yerli və xarici tədqiqatçıların işləri, ümumi fizioloji və patoloji |

| | |
|---|---|
| | mamalıq, perinatologiya, konservativ və cərrahi ginekologiya aid olan məlumatları haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla kifayət qədər tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirə bilir. |
| **3 (kafi)** | Doktorant mamalıq və ginekologiya fənnini qismən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu əsasən açıqlayır. Doktorant mamalıq və ginekologiya ixtisası üzrə yerli və xarici tədqqiatmıların məlumatları, fizioloji və patoloji mamalıq, perinatologiya, konservativ və cərrahi ginekologiya aid olan məlumatları haqqında<br>ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla yarımçıq tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant nəzəriyyəni, elmi tədqiqatların ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirməkdə çətinlik çəkir. |
| **2 (qeyri-kafi)** | Doktorant sualın məzmununu açıqlamır, mamalıq və ginekologiya fənnini mənimsədiyini nümayiş etdirə bilmir. Doktorant mamalıq və ginekologiya ixtisası üzrə yerli və xarici məlumatlar, fizioloji və patoloji mamalıq, perinatologiya, konservativ və cərrahi ginekologiya aid olan məlumatları haqqında minimum biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla minimum tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirə bilmir. |

## VI BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANINA HAZİRLAŞMAQ ÜÇÜN NÜMUNƏVİ SUALLARIN SİYAHISI

1. Mamalıq və ginekologiyanın problemləri.
2. Hamiləliyin diaqnostikası.
3. Fizioloji doğuşun baş vermə səbəbləri, dövrləri, biomexanizmi və aparılma taktikası.
4. Perinatologiya. Feto-plasentar sistemin fiziologiyası və patologiyası. Dölün bətndaxili vəziyyətini öyrənən müayinə üsulları (KTQ, Doppleroqrafiya)
5. Vaxtından qabaq doğuşların başvermə səbəbləri və aparılma taktikası
6. Vaxtı ötmüş hamiləliyin səbəbləri, ağırlaşmaları və aparılma taktikası.
7. Hamiləliyin I yarısının patologiyaları
8. Preeklampsiya, eklampsiya, HELLP sindrom
9. Hamiləlik və ekstragenital xəstəliklər, ağırlaşmalar , mamalıq taktikası
10. Mamalıq qanaxmaları.
11. Ciftin yerləşmə və bitişmə anomaliyaları (cift gəlişləri və ciftin həqiqi və yalançı bitişməsi)
12. Normal yerləşmiş ciftin vaxtından qabaq ayrılması

13. Son dövrün və erkən zahılıq dövrünün qanaxmaları. Profilaktika tədbirləri. Müalicəsi.
14. Hemorraqik şok. DDLsindrom
15. Dar çanaq. Diaqnostika. Hamiləliyin və doğuşun aparılma taktikası
16. Mamalıq travmatizmi. Səbəbləri, təsnifatı, klinikası və müalicəsi.
17. Çoxdöllü hamiləlik. Etiologiyası, hamiləliyin və doğuşun xüsusiyyətləri.
18. Fizioloji zahılıq dövrü
19. Zahılıq dövrünün irinli septiki xəstəliklər. Diaqnostika, mamalıq taktikası.
20. Kişik mamalıq əməliyyatları.
21. Kesar kəsiyi. Növləri, göstərişləri, aparılma texnikası, ağrısızlaşdırma üsulları, ağırlaşmalar.
22. Hamiləliyin erkən və gec dövrlərində süni pozulma üsulları.
23. Ginekologiyada istifadə olunan ümumi və xüsusi müayinə üsulları.
24. Ginekologiyada cərrahi cəməliyyat növləri. Ginekologiyada endoskopik cərrahiyyə.
25. Amenoreya və aybaşı pozulmaları. Təsnifatı, diaqnostikası, müalicəsi.
26. Qadın cinsiyyət orqanlarının spesifik və qeyri-spesifik xəstəlikləri.
27. Uşaqlıq boynunun fon və xərçəngönü xəstəlikləri.
28. Uşaqlığın xoş və bədxassəli şişləri.
29. Endometrioz.
30. Yumurtalıqların xoş və bədxassəli şişləri.
31. Uşaqlığın qeyri-düzgün vəziyyətləri.
32. Qadın cinsiyyət orqanlarının i
33. Ginekologiyada "kəskin qarın". Səbəbləri, diaqnostikası, klinikası, müalicəsi.
34. Sonsuz nigah. Diaqnostikası, müasir müalicə üsulları.
35. Neyroendokrin sindrom. Təsnifatı, diaqnostikası, müalicəsi.
36. Ailə planlaşdırılması. Müasir kontrasepsiya üsulları